Maliyyə hesabatlarına dair
İZAHLI QEYDLƏR

1. CƏMİYYƏT HAQQINDA ÜMUMİ MƏLUMAT

“Rəvan Sığorta” ASC-nin ilkin qeydiyyatı “Duoble İnsurance Company” Sığorta Şirkəti QTSC kimi 16 mart 1998-ci il tarixində qeydiyata alınmışdır. 22 dekabr 2004-cü il tarixində adını dəyişərək “Star Alyans Sığorta Şirkəti” Qapalı Səhmdar Cəmiyyəti kimi fəaliyyətini davam etdirmiş, 15 avqust 2008-ci il tarixdə Azərbayacan Respublikası Maliyyə Nazirliyi tərəfindən sığorta fəaliyyətinin həyata keçirilməsi üçün 042484 saylı müddətsiz lisenziya verilmişdir. “Star Alyans Sığorta Şirkəti” Qapalı Səhmdar Cəmiyyəti 21 avqust 2009-cu il tarixdə “Rəvan Sığorta”ASC-yə çevrilərək, Azərbaycan Respublikası Vergilər Nazirliyi Bakı şəhəri Vergilər Departamentinin Kommersiya Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı İdarəsi tərəfindən dövlət qeydiyyatına alınmışdır.

Cəmiyyət hal-hazırda Sığorta fəaliyyətinin həyata keçirilməsinə dair Azərbaycan Respublikası Maliyyə Nazirliyi tərəfindən verilmiş 000271 saylı, 15 oktyabr 2009-cu il tarixli lisenziya əsasında fəaliyyət göstərir.

Cəmiyyətin təsisçiləri:
“NBCBank” ASC – 760022.08 azn (yeddi yüz əlli min iyirmi iki manat, səkkiz qəpik) olmaqla 8.5395%
“Nurgün Grup” MMM – 4370047.36 azn (dörd milyon üç yüz yetmiş min qırx yeddi manat, otuz altı qəpik) olmaqla 49.1013 %
“Nurgün Motors” MMC – 3770001.76 azn (üç milyon yeddi yüz yetmiş min bir manat, yetmiş altı qəpik) olmaqla 42.3592%

Cəmiyyətin Nizamnaməsinə aşağıdakı tarixlərdə və formalarda dəyişiklik edilərək, Azərbaycan Respublikası Vergilər Nazirliyi Bakı şəhər Vergilər Departamentinin Kommersiya Hüquqi Şəxslərinin Dövlət Qeydiyyatı İdarəsi tərəfindən təsdiqlənmişdir: 29 aprel 2010-cu ildə 3 000024 (üç milyon iyirmi dörd) manat həcmində, hər biri 30,60 (otuz manat 60 qəpik) manat olmaqla 98040 (doxsan səkkiz min qırx) ədəd adi sənədsiz adlı səhmdən ibarət olub, 24 oktyabr 2011-ci ildə 4 000032 (dörd milyon otuz iki manat) manat həcmində, hər biri 40,80 (qırx manat 80 qəpik) manat olmaqla 98040 (doxsan səkkiz min qırx) ədəd adi sənədsiz adlı səhmdən ibarət olub. 21 may 2014-cü ildən etibarən isə 8 900 071,20 (səkkiz milyon doqquz yüz min yetmiş bir manat 20 qəpik) manat həcmindədir və hər biri 40.8 manat olmaqla 218 139 ədəd sənədsiz adi adlı səhmdən ibarətdir.

Cəmiyyətin səhmlərinin reyestrsaxlayıcısı: “Milli Depozit Mərkəzi” QSC.

Cəmiyyətin hüquqi ünvanı: Bakı şəhəri, Fətəli xan Xoyski 40

2. MÜHÜM UÇOT SIYASƏTLƏRININ XÜLASƏSI

Hesablamanın əsasları

Maliyyə hesabatları ədalətli dəyər prinsipi əsasında hazırlanmışdır. Maliyyə hesabatları Azərbaycan manatı ilə (AZN) təqdim edilmişdir.

Maliyyə hesabatlarının tərtib edilməsinin əsas prinsipləri

Hazırki maliyyə hesabatları Milli Maliyyə Hesabatı Standartlarına ("MMHS") uyğun olaraq hazırlanmışdır.

1) Torpaq, tikili və avadanlıqlar

Müəssisənin maliyyə təsərrüfat fəaliyyətində bir ildən çox iştirak edən, dəyəri normativ sənədlərlə tənzimlənən, köhnəldikcə öz dəyərini qanunvericiliklə müəyyən edilmiş normalarla hissə-hissə məhsulun dəyərinə keçirən, maliyyə təsərrüfat prosesində öz natural formasını saxlayan əmək vasitələri əsas vəsaitlər kimi qəbul edilir. Torpaq, tikili və avadanlıqlar ilkin dəyərlə, yığılmış amortizasiya və müəyyən olunmuş qiymətləndirmə üzrə dəyərdən düşmə zərərləri çıxılmaqla uçota alınır. İlkin dəyərə alış qiyməti, rüsumları, tariflər və onların tələb olunduğu vəziyyətə və lazımi istismar yerinə gətirilməsi ilə bağlı birbaşa xərclər daxildir. Torpaq, tikili və avadanlıqlar faydalı istifadə müddəti üzrə amortizasiya olunur. Faydalı istifadə müddəti isə torpaq, tikili və avadanlıqların gözlənilən istifadə sxeminə uğun olaraq fiziki köhnəlməsinə əsasən formalaşır və tanınır. Balansımızda olan torpaq amortizasiya olunmur, tikili və avadanlıqlar Azərbaycan Respublikasının vergilər məcəlləsinin 114 - cü maddəsinə əsasən aşağıdakı faiz dərəcələri tədbiq edilməklə düz xətt metodu ilə amortizasiya olunur:

Binalar, tikililər və qurğular	7%
Yüksək texnologiyalar məhsulu olan hesablama texnikası	25%
Nəqliyyat vasitələri	25%
Maşınlar və avadanlıqları	20%

	Yüksək texnologiyalar məhsulu olan hesablama texnikası	**Maşın və avadanlıqlar**	**Nəqliyyat vasitəsi**	**Binalar, tikililər və qurğular**
01.01.2020-ci il tarixə olan ilkin dəyər	47556,19	40993,00	128407,68	7869440,00
01.01.2020-ci il tarixə yığılmış amortizasiya	25811,44	22495,02	85173,81	432694,08
01.01.2020-ci il tarixə mövcud olan dəyər	21744,75	18497,98	43233,86	7436745,92
Dövr ərzində alış	14525,37	1026,60	0,00	0,00
Dəyərinin artırılması	0,00	0,00	1048,34	0,00
Dövr ərzində satış	0,00	0,00	129456,02	6688640,00
Dövr ərzində silinən	0,00	0,00	0,00	0,00
Dövr ərzində amortizasiya	13525,56	8326,40	13065,70	39906,10
Dövr ərzində silinən amortizasiya	0,00	0,00	98239,51	361749,32
31.12.2020 -ci il tarixə yığılmış amortizasiya	39337,00	30821,42	0,00	110850,86
31.12.2020-ci il tarixə mövcud olan dəyər	62081,56	42019,60	0,00	1180800,00

2) **Qeyri-maddi aktivlər**

Fiziki əsası olmayan, lakin sahibkarın imtiyazı və hüququ əsasında dəyər yaradan aktivlərdir. Qeyri-maddi aktivlər ilkin dəyərlə, yığılmış amortizasiya və hər hansı qiymətləndirmə üzrə zərəri çıxılmaqla uçota alınır. Faydalı istifadə müddəti qeyri-müəyyən olan aktivlər 10%, istifadə müddəti məlum olanlar isə illər üzrə istifadə müddətinə mütənasib məbləğdə amortizasiyası olunur. Kapitallaşdırılmış qeyri-maddi aktivlərə onların alınması, quraşdırılması, hazır vəziyyətə gətirilməsi və təkmilləşdirilməsi ilə bağlı çəkilən xərclər əlavə olunmaqla balansda tanınınır.

	Qeyri maddi aktivlər
01.01.2020-ci il tarixə olan ilkin dəyər	53980.00
01.01.2020-ci il tarixə yığılmış amortizasiya	28247.76
01.01.2020-ci il tarixə mövcud olan dəyər	25732.24
Dövr ərzində alış	0
Dəyərinin artırılmas	0
Dövr ərzində satış	0
Dövr ərzində silinən	0
Dövr ərzində amortizasiya	2493.14
31.12.2020-ci il tarixə yığılmış amortizasiya	30740.9
31.12.2020-ci il tarixə mövcud olan dəyər	23239.10

3) Aktivlərin qiymətdən düşməsi

Uzunmüddətli aktivlərinin maliyyə hesabatlarında real bazar dəyər ilə əks etdirilməsi hər bir müəssisə üçün vacib amillərdən hesab olunur. Uzunmüddətli aktivlərin dəyərində azalmalar müşahidə edilməsi onların balans dəyəri ilə bərpa oluna bilən dəyəri arasında fərqliliyin əmələ gəlməsinə səbəb olur. Belə olan halda uzunmüddətli aktivlərinin maliyyə hesabatlarında bərpa edilə bilən dəyərdən artıq dəyərlə uçota alınmamasına nəzarət edilir. Maddi aktivlərin dəyərlərinin müəyyənləşdirilməsi müstəqil kənar ekspertlər tərəfindən aparılır. Aktivin balans dəyəri onun bərpa olunan dəyərlərindən çox olarsa, o zaman Mənfəət və Zərər haqqında hesabatda qiymətdən düşmə zərəri kimi tanınır. Yenidənqiymətləndirmə tarixinə yığılmış amortizasiya məbləği aktivin balans dəyərindən silinir və xalis dəyər yenidənqiymətləndirmə dəyərinə hesablanır.

4) Ehtiyatlar

Ehtiyatlarlar Sığorta Nəzarəti orqanının təstiq etdiyi qaydalara uyğun olaraq formalaşdırılır. Cəmiyyətimiz sığortanın *Qeyri Həyat* sahəsi üzrə fəaliyyət göstərir və aşağıdakı ehtiyatlara dair məcburi ayırmalar həyata keçirir.

1. Qazanılmamış sığorta haqları ehtiyatı
2. Baş vermiş lakin bildirilməmiş zərərlər ehtiyatı
3. Bildirilmiş lakin tənzimlənməmiş zərərlər ehtiyatı
4. Sabitləşdirici ehtiyat

5) Ümidsiz borclar üzrə əməliyyatlar

Şübhəli borclar cəmiyyətin tələb olunan kapitalının formalaşmasında istifadə olunmur və ehtiyatları təmin edən vəsait kimi nəzərə alınmır. Belə olan halda debitor borcların həddindən çox göstərilməsinə (şişirdilməsinə) zəmin yaratmamaq üçün maliyyə vəziyyəti haqqında hesabatdan silinir. Ümidsiz borclar bu kateqoriyaya aid edilməmişdən öncə bütün parametrlər üzrə analiz edilir və borcun ümidsiz olmağı təstiqləndikdən sonra xərc hesabına bağlanılır.

6) Mənfəət vergisi

Mənfəət vergisi üzrə xərclərə cari və təxirə salınmış vergi xərcləri daxildir.

Cari mənfəət vergisi – balans hesabatı tarixinə qüvvədə olan vergi dərəcələrini istifadə etməklə vergiyə cəlb olunan mənfəətə əsasən hesablanır. Hesabatdakı bəzi gəlir və xərclərin digər dövrlərdə vergi bazasına aid ediləcəyinə (müvəqqəti fərqlər) və bəzi maddələrin heç bir vaxt vergi bazasını hesablayarkən istifadə edilməyəcəyinə görə (daimi fərqlər) vergi mənfəəti hesabatdakı mənfəətdən fərqlənir.

Təxirə salınmış mənfəət vergisi – cari və keçmiş dövrlərin maliyyə hesabatlarında tanınan əməliyyat və hadisələrin qiymətləndirilmiş gələcək vergi nəticələridir. Təxirə salınmış vergi elə mühasibat qeydidir ki, müvəqqəti fərqlər üzrə nəticələnə biləcək uçot mənfəəti və vergi mənfəəti arasında mövcud olan əlaqə ilə bağlı istənilən təhrifin aradan qaldırılmasını təsvir edir.

Təxirə salınmış vergi öhdəlikləri - vergi tutulan müvəqqəti fərqlər ilə əlaqədar gələcəkdə ödənilməli olan mənfəət vergisinin məbləğidir.

Təxirə salınmış vergi aktivləri - çıxılan müvəqqəti fərqlərin nəticəsi kimi yaranan və gələcək dövrlərdə əvəzi alınmalı olan mənfəət vergisi məbləğləridir. Təxirə salınmış vergi aktivləri və öhdəliklərinin qiymətləndirilməsi, aktivin realizasiya olunacağı və ya öhdəliyin yerinə yetiriləcəyi dövrə tətbiq edilməsi gözlənilən balans hesabatı tarixinə qüvvədə olan vergi dərəcələri əsasında qiymətləndirilməlidir. Lakin balans hesabatı tarixinə hökumət gələcək illərdə vergi dərəcəsini dəyişəcək qanunvericilik aktlarını qəbul edərsə, bu zaman gələcəkdə qüvvədə olacaq dərəcə istifadə olunmalıdır.

7) Gəlirin tanınması:

Bağlanmış sığorta müqavilələri üzrə ümumi sığorta haqları, müqavilələrin müddəditdən asılı olmayaraq birbaşa sığorta müqavilələrdə nəzərdə tutulan tam müddət üzrə alınacaq cəmi sığorta haqlarından ibarətdir. Sığorta haqlarından gəlirlər sığorta müqaviləsi bağlandığı tarixdən tanınır.

i) Xərclərin tanınması:

Xərclər mənfəət və zərər haqqında hesabatda onların yarandığı dövr üzrə tanınır.

j) Əmək fəaliyyətinin başa çatmasından sonra mükafatlar

Balans tarixinə əmək fəaliyyətinin başa çatmasına görə mükafatlar hesabat tarixinə işçilərin iş stajına, cari və əlavə əmək haqqına əsasən Azərbaycan Respublikası Əmək qanunvericiliyinə uyğun olaraq hesablanır. İşdən çıxma üzrə müavinətlər yarandığı zaman xərc kimi tanınır.

k) Qiymətləndirilmiş ehtiyatlar

Qiymətləndirilmiş ehtiyatlar keçmiş hadisələrin nəticəsi olan öhdəliklərə (hüquqi və konstruktiv) sahib olduqda, öhdəliyin yerinə yetirilməsi üçün iqtisadi səmərələri təcəssüm etdirən resursların tələb olunacağı ehtimal olunduqda və öhdəliyin məbləği etibarlı qiymətləndirilə bildikdə öhdəlik kimi tanınır.

l) Xarici valyutalar

Xarici valyutada olan monetar maddələr (kassa qalığı, hesab qalığı, debitor borclar, kreditor borclar, öhdəliklər və s.) cəmiyyətin balans hesabatının bağlandığı tarixə olan valyuta məzənnəsindən istifadə etməklə hesabat verdiyi valyutaya dəyişilir. Xarici valyutada olan maya dəyəri ilə qiymətləndirilən qeyri-monetar maddələr tanınmış maya dəyəri nəticəsində ilkin əməliyyatın aparıldığı zaman mövcud olan valyuta məzənnəsi istifadə olmaqla çevrilir. Xarici valyutada olan ədalətli dəyər ilə qiymətləndirilən qeyri-monetar maddələr ədalətli dəyər müəyyən edilən günə olan valyuta məzənnəsi istifadə olunmaqla çevrilir. Xarici valyuta ilə ifadə olunmuş monetar maddələr ilə əlaqədar yaranan məzənnə fərqləri mənfəət və zərər haqqında hesabat vasitəsilə mühasibat uçotuna daxil edilir. Xarici valyuta ilə olan qeyri-monetar maddələr ədalətli dəyərin təyin edildiyi tarixdə mövcud olan məzənnəyə əsasən yerli valyutaya çevrilir.

m) Maliyyə alətləri

Maliyyə alətləri bir müəssisənin maliyyə aktivlərinin və digər müəssisənin maliyyə öhdəliyinin yaranmasına səbəb olan müqavilədir. Bu ikili məsələ hər zaman mövcud olmalıdır. Əgər bu aspektlərdən hər hansı biri mövcud deyilsə, onda müqavilə maliyyə aləti sayılmır. Ədalətli dəyər, məcburi satış və ya ləğvetmə halları istisna olmaqla, maraqlı tərəflər arasında cari əməliyyat zamanı maliyyə alətinin mübadilə edilə bildiyi məbləği əks etdirir və sərbəst katirovkası olan bazar qiymətləri ilə təsdiqlənir. Maliyyə alətlərinin təxmin edilən ədalətli dəyəri cəmiyyət tərəfindən mövcud bazar məlumatlarından (əgər mövcud olarsa) və müvafiq qiymətləndirmə metodlarından istifadə etməklə müəyyən edilmişdir. Təxmin edilən ədalətli dəyərin müəyyən edilməsi üçün bazar məlumatlarını şərh edərkən peşəkar mülahizələr irəli sürmək tələb edilir. Maliyyə alətlərinin ədalətli dəyərini müəyyən edərkən mövcud bazar məlumatlarından istifadə edir.

n) Nağd pul vəsaitləri və onların ekvivalentləri

Pul vəsaitlərinin hərəkəti haqqında hesabatın hazırlanması zamanı nağd pul vəsaitləri və onun ekvivalentləri, kassa, bank hesablarındakı pullar nəzərə alınır.

3. Maliyyə vəziyyəti haqqında hesabat

Azərbaycan Respublikasının
Maliyyə Nazirliyinin
Forma № 1S **5 dekabr 2008-ci il**
İ-125 №-li əmri ilə təsdiq edilmişdir.

SIĞORTAÇININ (TƏKRARSIĞORTAÇININ) və HÜQUQİ ŞƏXS SIĞORTA BROKERİNİN MÜHASİBAT BALANSI (illik)

A K T İ V L Ə R	30.12.19	30.12.20
I .UZUNMÜDDƏTLİ AKTİVLƏR		
Torpaq, tikili və avadanlıqlar	7520222,52	1103891,88
Torpaq, tikili və avadanlıqlarla bağlı məsrəflərin kapitallaşdırılması		
Daşınmaz əmlaka investisiyalar	350000,00	350000,00
Qeyri-maddi aktivlər	25732,24	23239,10
Təxirə salınmış vergi aktivləri	0	0,00
Uzunmüddətli debitor borcları		
Uzunmüddətli maliyyə aktivləri:	700000,00	700000,00
dövlət qiymətli kağızları	700000,00	700000,00
qeyri-dövlət qiymətli kağızları		
sair maliyyə aktivləri		
İştrak payı metodu ilə uçota alınmış investisiyalar	675027	0,00
Təsisçi və ya səhmdarlarla hesablaşmalar		
Sair aktivlər	0	0,00
Cəmi uzunmüddətli aktivlər	9270981,76	2 177 130,98
II . QISAMÜDDƏTLİ AKTİVLƏR		
Ehtiyatlar		
Debitor borcları:	2783279,27	5062584,97
birbaşa sığorta üzrə	1608126,84	684102,17
təkrarsığorta əməliyyatları üzrə :	0,00	2458,01
- təkrarsığortaçı üzrə	0,00	2458,01
- təkrarsığortalı üzrə	0,00	0,00
asılı təşkilatlar üzrə		
büdcə üzrə	24800,00	392,15
iddia tələbləri üzrə	0,00	131548,84
işçi heyəti üzrə	0,00	1896006,98
sığortalılara verilən borclar üzrə		
sair debitorlar	1150352,43	2348076,82

Pul vəsaitləri və onların ekvivalentləri:	4723092,13	8774,40
kassa	10138,34	985,14
hesablaşma hesabı	702932,80	7 789,26
valyuta hesabı	20,99	0,00
depozit hesablar	4010000,00	0,00
sair pul vəsaitləri	0,00	0,00
Qısamüddətli maliyyə aktivləri:	0,00	0,00
dövlət qiymətli kağızları		
qeyri-dövlət qiymətli kağızları		
sair maliyyə aktivləri		
Sığorta ehtiyatlarında təkrarsığortaçıların payı:	221750,54	128443,13
həyat sığortası sahəsi üzrə		
qeyri-həyat sığortası sahəsi üzrə	221750,54	128443,13
Sair qısamüddətli aktivlər:	58550,00	335662,73
gələcək hesabat dövrlərinin xərcləri	0,00	0,00
verilmiş avanslar	58550,00	335662,73
təhtəl hesablar		
Sair aktivlər		
Cəmi qısamüddətli aktivlər	7 786 671,94	5 535 465,23
CƏMİ AKTİVLƏR	17 057 653,70	7 712 596,21
K A P İ TA L VƏ Ö H D Ə L İ K L Ə R	**30.12.19**	**30.12.20**
I . KAPİTAL		
Ödənilmiş nominal (nizamnamə) kapitalı	8900071,20	8900071,20
Emissiya gəliri		
Geri alınmış kapital (səhmlər)		
Kapital ehtiyatları:	58520,71	7619,04
yenidən qiymətləndirilmə üzrə ehtiyat	58520,71	7619,04
digər kapital ehtiyatları	0,00	0,00
Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər)	3946278,33	-3522199,25
Hesabat dövründə xalis mənfəət (zərər)	246834,21	-7468477,58
Mühasibat uçotu siyasətində dəyişikliklərlə bağlı mənfəət (zərər) üzrə düzəlişlər		
Keçmiş illər üzrə bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər)	3699444,12	3946278,33
Elan edilmiş dividendlər		
Cəmi kapital	12 904 870,24	5 385 490,99
II. UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR		
Sığorta ehtiyatları:	3826051,09	2094569,59
Həyat sığortası sahəsi üzrə :	0,00	0,00
Qeyri-həyat sığortası sahəsi üzrə:	3826051,09	2094569,59
Qarşısalınma tədbirləri fondu		
Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər		
Uzunmüddətli qiymətləndirilmiş öhdəliklər		

Təxirəsalınmış vergi öhdəlikləri	0,00	0,00
Kreditor borcları :	0,00	0,00
əməyin ödənilməsi üzrə		
büdcə üzrə		
sosial sığorta və təminat üzrə		
digər məcburi ödənişlər üzrə		
asılı təşkilatlar üzrə		
sair kreditorlar		
Sair uzunmüddətli öhdəliklər:	0,00	0,00
gələcək hesabat dövrünün gəlirləri		
alınmış avanslar		
Təkrarsığorta əməliyyatları üzrə öhdəliklər:	147159,60	67328,95
təkrarsığortaçı üzrə	147159,60	67328,95
təkrarsığortalı üzrə		
Təsisçi və ya səhmdarlarla hesablaşmalar		
Sair öhdəliklər	0,00	0,00
Cəmi uzunmüddətli öhdəliklər	3973210,69	2161898,54
III . QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR		
Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər		
Qısamüddətli qiymətləndirilmiş öhdəliklər		
Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər		
Kreditor borcları:	153173,45	136953,12
əməyin ödənilməsi üzrə	0,00	26934,76
büdcə üzrə	52817,69	520,00
sosial sığorta və təminat üzrə	11204,63	5221,64
digər məcburi ödənişlər üzrə	0,00	0,00
asılı təşkilatlar üzrə		
sair kreditorlar	89151,13	104276,72
Sair qısamüddətli öhdəliklər:	0,00	0,00
gələcək hesabat dövrünün gəlirləri		
alınmış avanslar		
Təsisçi və ya səhmdarlarla hesablaşmalar		
Sair öhdəliklər	26399,32	28253,56
Cəmi qısamüddətli öhdəliklər	179 572,77	165 206,68
CƏMİ ÖHDƏLİKLƏR	4 152 783,46	2 327 105,22
CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR	17 057 653,70	7 712 596,21
Qeyd : Ödənilməsinə zəmanət verilmiş məbləğlərin cəmi*		

4. Əsas əməliyyat gəlirləri və xərcləri

Azərbaycan Respublikasının
Maliyyə Nazirliyinin
5 dekabr 2008-ci il
İ-125 №-li əmri ilə təsdiq edilmişdir.

Forma № 2S

SIĞORTAÇININ (TƏKRARSIĞORTAÇININ) və HÜQUQİ ŞƏXS SIĞORTA BROKERİNİN MƏNFƏƏT və ZƏRƏRİ HAQQINDA HESABAT (illik)

Gəlirlər	Məbləğ
Əsas əməliyyat gəliri:	1179167,37
birbaşa sığorta üzrə sığorta haqları	1077918,38
təkrarsığorta üzrə təkrarsığorta haqları	0
sığorta ödənişlərində təkrarsığortaçıların payı üzrə	101248,99
təkrarsığortaya verilmiş müqavilələr üzrə komissyon muzdlar üzrə	0
Xalis sığorta ehtiyatlarının dəyişməsi (müsbət və ya mənfi)	1638174,09
İnvestisiya gəlirləri üzrə	163873,28
Subroqasiya gəlirləri	143005,07
Sair gəlirlər	124266,77
CƏMİ GƏLİRLƏR	3248486,58
Xərclər	
Əsas əməliyyat xərcləri:	7017655,99
sığorta ödənişləri və sığorta məbləğləri üzrə	332101,37
qaytarılan sığorta haqları üzrə	1284473,40
tənzimləmə xərcləri	52380,00
təkrarsığortaya verilmiş sığorta haqları üzrə	90607,58
qarşısıalınma tədbirləri fonduna ayırmalar üzrə	0,00
sığorta fəaliyyəti üzrə sair xərclər	5258093,64
İşlərin aparılması xərcləri	1045505,84
Sair xərclər	2653802,33
CƏMİ XƏRCLƏR	10716964,16
Maliyyə mənfəəti (zərəri)	-7468477,58
Mənfəətin nizamnamə kapitalına yönəldilən hissəsi	0,00
Vergiqoyulmadan əvvəl mənfəət (zərər)	-7468477,58
Mənfəət vergisi	0,00
Hesabat dövründə xalis mənfəət (zərər)	-7468477,58

5. Büdcəyə və büdcədən kənar ödənişlər:

Göstəricilərin adları	Hesablanmışdır	Faktiki ödənilmişdir
Mənfəətdən vergi	0,00	0,00
Əlavə dəyər vergisi	38451,55	38451,55
Gəlir vergisi	0,00	0,00
Əmlak vergisi	42682,85	70744,85
Torpaq vergisi	520,00	520,00
Aksizlər	0,00	0,00
Ödəmə mənbəyində vergi (10%)	15268,28	15268,28
Sair vergilər	1268,86	1268,86
Sosial sığorta və təminat	133495,16	139478,15
Məcburi ödənişlər (0,4%)	2410,57	2410,57
İqtisadi sanksiyalar	0,00	0,00

6. Kapitalın hərəkəti haqqında hesabat

	Nizamnamə kapitalı	***Əsas vəsaitlər üzrə yenidən qiymətləndirmə ehtiyatı***	***Bölüşdürülməmiş mənfəət***	***Cəmi***
1 yanvar 2020-ci il tarixinə qalıq	8900071,2	58520,71	3946278,33	12904870,24
İl üzrə mənfət(zərər)	0	0	-7468477,58	-7468477,58
Yenidən qiymətləndirmə ehtiyatı	0	-50901,67	0	-50901,67
31 dekabr 2020-ci il tarixinə qalıq	8900071,2	7619,04	-3522199,25	5385490,99
2020-ci il üzrə kapitalda dəyişiklərin cəmi	0	-50901,67	-7468477,58	-7519379,25

7. Pul vəsaitlərinin hərəkəti

		2019	2020
Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitləri			
1	Yığılmış ümumi siğorta haqqları	2 057 858,68	857 948,11
2	Siğorta ödənişlərində təkrarsiğortaçının payı	16 973,65	9 603,42
3	Ümumi siğorta ödənişləri	-451 044,91	-251 793,13
4	Vaxtından əvvəl xitam verilmiş siğorta müqavilələri üzrə xərc	-64 269,81	-114 478,74
5	Təkrarasiğortacıya verilmiş risklər üzrə siğorta haqları	-107 141,37	-85 886,29
6	Reqress iddialarından alınan pul vəsaitləri	189 819,89	143 563,22
7	Malgöndərənlərə və xidmət göstərənlərə, işçilərə ödənilən pul vəsaitləri, və sair ödəmələr	-694 942,19	-607 395,02
8	Alınmış digər gəlirlər	3 279 316,18	2 681,06
9	Ödənilmiş digər xərclər	-210 161,47	-180 275,62
10	Verilmiş avanslar	508 550,00	-333 550,73
11	Müəssisənin fəaliyyətinə aid olan vergilər	-87 525,61	-268 142,26
12	İşçilərə verilmiş borc	0,00	-1 900 000
13	*Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkəti üzrə yekun.*	4 437 433,04	-2 737 725,98
İnvestisiya fəaliyyətindən daxil olan pul vəsaitləri			
14	Müəssisələrin səhmlərinin alınması	0,00	0,00
15	Alınmış dividendlər	0,00	0,00
16	Alınmış faizlər	328 556,47	141 424,05
17	Əsas vəsaitlərin və qeyri maddi aktivlərin alınması.	-4 712 125,73	-15 315,29
18	Əsas vəsaitlərin və qeyri maddi aktivlərin satışından əldə olunan pul vəsaitləri.	-1 680,00	543 774,32
19	Qısamüddətli korporativ istiqraz vərəqələrinin alınması.	-372 300,00	0,00
20	Qısamüddətli korporativ istiqraz vərəqələrinin satılması.	689 984,54	0,00
21	Bank depozitlərinin netto cəmi (depozitlərin geri qaytarılması çıxılsın yerləşdirilməsi)	0,00	4 010 000,00
22	*İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkəti üzrə yekun.*	-4 067 564,72	4 679 883,08
Maliyyə fəaliyyəti.			
23	Alınmış qrantlar		0,00
24	Mənfəət (və ya zərər)		-2 646 474,83
25	Nizamnamə fonduna qoyuluşlar.		0,00
26	*Maliyyə fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkəti üzrə yekun.*	0,00	-2 646 474,83
27	*İl ərzində pul vəsaitlərinin və pul ekvivalentlərinin dəyişməsi*	*369 868,32*	*-704 317,73*
28	*İlin əvvəlinə pul vəsaitləri və pul ekvivalentləri.*	343 223,81	713 092,13
29	*İlin sonuna pul vəsaitləri və pul ekvivalentləri.*	713 092,13	8 774,40